## AZAY SƏMƏDOĞLU

### Ürəyimcəsən

Qənirsiz gözəlsən, gözəl bəxtəvər,
Qaş altdan qıyğacı süzən bəxtəvər,
Güləndə canımı üzən bəxtəvər,
Qaməti biçimli, beli incəsən,-
Ay gözəl, sən mənim ürəyimcəsən!

Baxışın dil açır, nəğmə söyləyir,
Mirvari dişlərin inci ələyir,
Dilin dodağına qəmzə eyləyir,
Süzgün baxışlısan, təbi incəsən,-
Ay gözəl, sən mənim ürəyimcəsən!

Bəxtiyardır sənə sahib olan kəs,
Sənsiz keçirərmi bir anı əbəs?!
Nə ad verim sənsiz keçən günə bəs,
Sən aydan, ulduzdan, gündən öncəsən,-
Ay gözəl, sən mənim ürəyimcəsən!

Günəşə pay düşür gözəlliyindən,
Gözəl gözlərinin dərinliyindən,
Daranır tellərin cilvəliyindən,
Qaymaq dodaqlısan, ləbi qönçəsən,-
Ay gözəl, sən mənim ürəyimcəsən!

Hüsnünə heyranam, sanki mələksən,
Duyğusan, xəyalsan, şirin diləksən,
Arazın köksündə həzin ürəksən,
Zərif çiçəklərdən, güldən incəsən,-
Ay gözəl, sən mənim ürəyimcəsən!

### Bilmədim

Gəlsək də üz-üzə bir yaz axşamı,
Ürəkdən sevinib gülə bilmədim,
Kövrək bir nəğməydi, o, yaz axşamı,-
Axdı yanağına gilə, bilmədim.

Bir zaman mənimçün zərif çiçəkdin,
Həsrəti sürmətək gözünə çəkdin,
Sən mənə hamıdan axı göyçəkdin,-
Odun nə vaxt döndü külə, bilmədim.

Od sönüb, köz ilə oynayıram mən,
Hər zaman özümü qınayıram mən,
Dən düşən saçımı darayıram mən,-
Nə zamandan düşdü telə, bilmədim.

Unutmağı belə bacarmır ürək,
Düşür haldan-hala, qocalmır ürək,
Kədərin bəs niyə azalmır, ürək,-
Dəydimi mizrabı telə, bilmədim.

İllərlə bu sevgi sirdaşım oldu,
Qəmimdən qəmləndi, qəmdaşım oldu,
Zehinim, düşüncəm, yaddaşım oldu,-
Necə düşdü dildən dilə bilmədim.

Eşqimi inada qurban eylədim,
Bu eşqin hicrindən fəğan eylədim,
Yandım öz odumda, tüğyan eylədim,
Aylar necə döndü ilə bilmədim,-
Səni ürəyimdən silə bilmədim.